# KİÇİK ASİYA AĞAC QURBAĞASININ (*Hyla savignyi* Audouin, 1827) AZƏRBAYCANDA YENİ YAYILMA YERLƏRİ HAQQINDA

**Gülbəniz Qasımova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu, gqasimova@mail.ru*

Kiçik Asiya ağac qurbağası (*Hyla savignyi* Audouin, 1827) ilk dəfə Audouin tərəfindən Suriyada təsvir edilmişdir (Duellman, 1977). Sonradan Boulenger (1882) bu növü *Hyla arborea var. savignyi* kimi, Nieden (1924) isə *Hyla arborea savignyi* yarımnövü kimi təyin etmişlər. Hazırda *Hyla savignyi* yenidən ayrıca növ kimi qəbul edilir (Schneider & Nevo 1972; Brzoska, Schneider and Nevo 1982; Schneider et al. 1984; Schneider, 1974; Frost, 1985).

Morfoloji əlamətlərinə və "nikah" dövründə oxumağına görə bu növ Hyla cinsinin digər növlərindən fərqlənir (Schneider & Nevo 1972; Balletto et al., 1985). Ağac qurbağaları fəsiləsinin digər növlərində olduğu kimi, barmaqlarının ucunda diskvari sormaclar var. Bədənin üst tərəfi yaşıl, alt hissəsi isə ağımtıldır. Burun dəliklərindən başlayaraq, bədənin yanları boyunca ağ zolaq uzanır. Qasıq nahiyədə bu zolaq Şərq ağac qurbağasından (*Hyla orientalis*) fərqli olaraq ilgək formasını əmələ gətirmir.

Qərbi Asiyadan Cənubi Qafqaza qədər, o cümlədən Kipr, Cənub-şərqi Türkiyə, Levant, Ərəbistan yarımadası, İran, Şimali İraq, Azərbaycan, Gürcüstan və Ermənistan ərazilərində yayılmışdır.

Zaqafqaziyada (indiki Cənubi Qafqaz) ilk dəfə 1830-cu ildə Menetriye tərəfindən Lənkəran yaxınlığında, 1840-cı ildə Yelizavetpol ətrafında (indiki Gəncə) Friçe tərəfindən, 1864-cü ildə Astara ətrafında Qebel tərəfindən qeydə alınmışdır. Kessler (1878) bu növün Kür-Araz boyunca və yanlışlıqla Zaqatala ərazisində yayıldığını göstərmişdir. Şelkovnikov (1910) tərəfindən isə Zuvand ərazisində meşəsiz sahədə müşahidə olunmuşdur. Qumilevski (1939) qeyd edirdi ki, Azərbaycanda Kiçik Asiya ağac qurbağasının arealının şərq sərhədləri Yardımlı və Astraxanbazar (indiki Cəlilabad) rayonları ərazisindən, daha sonra Kür-Araz ovalığından keçərək, Böyük Qafqazda İsmayıllı rayonu boyunca uzanır.

Ələkbərov (1978) əldə etdiyi məlumatlar əsasında Kiçik Asiya ağac qurbağasının arealının cənub-şərq sərhədlərinin bir qədər də geniş olduğunu və Xəzər sahilinə qədər uzandığını müəyyən etmiş, həmçinin bu növü Kür-Araz ovalığının şərq hissəsində, Saatlı rayonunun şimal-qərbində sıx kolluq ərazidə, İmişli rayonunun mərkəzində bir neçə bağ sahəsində, Kürağzı balıqyetişdirmə zavodu (Neftçala rayonu) yaxınlığında otluq sahədə, Ağcabədi rayonu ətrafında, Zəngilanda Həkəri çayının sahilində otluq və qamışlıq ərazidə, Naxçıvanda Qahab kəndinin yaxınlığındakı su anbarı ətrafında söyüd ağacı üzərində, Naxçıvan ətrafında adi dəvətikanı bitkisi üzərində və Mingəçevir yaxınlığında, Bozdağ silsiləsinin ətəyində qurumuş otluq sahədə qeydə almışdır.

Vəliyeva (1975) bu növün Lənkəran, Lerik, Astara və İmişli rayonları ilə yanaşı Əli Bayramlı (indiki Şirvan) şəhəri ərazisində yayıldığını qeyd edir. Kidov (2013) *H.savignyi* növünə Cəlilabad rayonunun Alar, Biləsuvar rayonunun Xırmandalı, Salyan rayonunun Şorsulu və Sarvan kəndləri ərazilərində rast gəlmişdir. Kiçik Asiya ağac qurbağasının yeni yayılma əraziləri haqqında materiallar 2007-2022-ci illər ərzində yaz, yay, payız və qış aylarında apardığımız çöl-tədqiqat işləri zamanı toplanılmışdır. Tərəfimizdən 26 aprel 2007-ci il tarixində Lənkəran rayonunun Yuxarı Nüvədi kəndi ətrafındakı çəmənlik ərazidən *H.savignyi* növünün 3 dişi (♀) fərdi, 24 aprel 2008-ci il tarixində isə Haftoni qəsəbəsi yaxınlığındakı istifadəsiz çay plantasiyasından 2 erkək (♂) fərdi əldə edilmişdir. Ağstafa rayonu Böyük Kəsik Dəmiryol Stansiyası yaxınlığından 3 iyun 2010-cu il tarixində *H.savignyi* növünün 2 erkək (♂) fərdi tapılmışdır.

Çöl işləri zamanı ilk dəfə olaraq, Füzuli rayonunun Horadiz şəhəri ətrafından (17 may 2012-ci il) 4 fərd (3 ♂ və 1♀), Zobucuq qəsəbəsində (30 iyul 2018-ci il) həyətyanı sahədən 2 erkək (♂) fərd əldə edilmişdir.

Digər bir yeni tapıntı yeri Salyan rayonunun Seydan kəndi olmuşdur. 08 mart 2021-ci il tarixində kəndin yaxınlığındakı bostan sahəsində 1 dişi (♀) fərdə rast gəlnmişdir.

Şamaxı rayonu ərazisində aparılan tədqiqatlar zamanı (04 iyul 2022-ci il) Dəmirçi-Lahıc şosse yolunun kənarında dağüstü bozqır ərazidəki qamış bitkisi ilə zəngin gölməçədə Ağac qurbağası (Hyla) cinsinə məxsus çömçəquyruqlara rast gəlinmiş, bir qismi inkişafını izləmək məqsədilə laboratoriyaya gətirilmişdir. Metamorfozu başa vuran fərdlərin Kiçik Asiya ağac qurbağası növünə aid olduğu müəyyən edilmişdir.

Payız və qış aylarında aparılan çöl tədqiqatlarında – 05.09.2013-cü il tarixində Cəlilabad rayonunun Təzəkənd kəndi ətrafında bu növün 1 erkək (♂), 29 yanvar 2017-ci il tarixində Hacıqabul rayonunun Qarasu kəndi yaxınlığında 1 dişi (♀) fərdi qeydə alınmışdır.

*H.savignyi* növünün qeydə alındığı ərazilərdən aydın olur ki, o, əsasən arid, dağüstü kserofit landşaftlarda, düzənliklərin yarımsəhra və quru-çöl landşaftlarında yaşayır. Su hövzələrindən uzaq, seyrək bitki örtüyünə malik sahələrdə, eləcə də su hövzələrinin yaxınlığında otla örtülü nəm yerlərdə, bağlarda və kolluqlarda rast gəlinir. Günün əksər hissəsini bitkilərin üzərində hərəkətsiz oturmaqla keçirir. Qoruyucu rəngə sahib olduğu üçün yerini səsinə görə müəyyən etmək olur.

Tapıntı yerlərinə əsasən deyə bilərik ki, Kiçik Asiya ağac qurbağasının Azərbaycanda arealı qərb, cənub və cənub-şərq rayonlarını əhatə edir. Müxtəlif müəlliflər tərəfindən xeyli sayda tapıntı nöqtələrinin olmasına baxmayaraq, bu növün Azərbaycanda yayılma sərhədlərini hələ də dəqiq müəyyən etmək mümkün olmamışdır.